**FYODOR DOSTOYEVSKİ**

# ÖLÜ EVDƏN QEYDLƏR

Tərcüməçi:
Məmməd Qocayev

qanun nəşriyyatı

**ФЁДОР ДОСТОЕВСКИЙ**

# ЗАПИСКИ ИЗ МЁРТВОГО ДОМА

“Ölü evdən qeydlər” Dostoyevski yaradıcılığında və dünyagörüşündə dönüş nöqtəsidir. Bu əsəri Dostoyevski onillik fasilədən, Sibir sürgünündən qayıtdıqdan sonra yazıb. 1849-cu ildə yazıçı Petraşevskinin dərnəyində iştirakına və orada V.Q.Belinskinin “Qoqola məktub”unu oxuduğuna görə digər sosialist-utopistlərlə birlikdə həbs edilib. Məhkəmə ona dərnəyin fəalları sırasında ölüm hökmü çıxarsa da icrasına bir neçə dəqiqə qalmış hökm Çar tərəfindən dəyişdirilərək Sibirə sürgünlə əvəz edilib. Özünün çox da uzaqda olmayan ölüm anlarını yaşayan gənc ədib cəzanın dörd ilini Omsk şəhərinin həbsxanasında, qalan altı ilini isə Sibirdə keçib.

“Ölü evdən qeydlər” əsəri yazıçının məhz Omsk həbsxanasındakı həyatını və təəssüratlarını əks etdirir və real faktlar əsasında yazılıb. Müdhiş cinayətlər törətmiş məhbuslarla ünsiyyət onun dünyagörüşünə təsirsiz ötüşməyib.

**Фёдор Достоевский ЗАПИСКИ ИЗ МЁРТВОГО ДОМА**
**Fyodor Dostoyevski ÖLÜ EVDƏN QEYDLƏR**
Bakı, Qanun Nəşriyyatı, 2024, 376 səh.

Janr: roman, fəlsəfi bədii ədəbiyyat
Yaş qrupu: 16+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 02.11.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Məmməd Qocayev |
| Korrektor: | Sona Əliyeva |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-616-0

© Qanun Nəşriyyatı, 2019; 2024
© Fyodor Mixayıloviç Dostoyevski, ilk dəfə 1860-1862-ci illərdə
“Время” jurnalında nəşr olunub.

# MÜNDƏRİCAT

## B i r i n c i   h i s s ə

G i r i ş ........................................................................ 6
I Ölü ev ........................................................................ 12
II İlk təəssürat ........................................................................ 29
III İlk təəssürat ........................................................................ 49
IV İlk təəssürat ........................................................................ 67
V Birinci ay ........................................................................ 87
VI Birinci ay ........................................................................ 104
VII Yeni tanışlıqlar. Petrov ........................................................................ 121
VIII Qətiyyətli adamlar. Luçka ........................................................................ 136
IX İsay Fomiç. Hamam. Bakluşinin hekayəti ........................................ 144
X İsanın mövludu günü ........................................................................ 164
XI Tamaşa ........................................................................ 184

## İ k i n c i   h i s s ə

I Hospital ........................................................................ 207
II Davamı ........................................................................ 224
III Davamı ........................................................................ 241
IV Kulkanın əri ........................................................................ 262
V Yay mövsümü ........................................................................ 275
VI Katorqa heyvanları ........................................................................ 295
VII İddia ........................................................................ 310
VIII Yoldaşlar ........................................................................ 332
IX Qaçış ........................................................................ 350
X Katorqadan çıxış ........................................................................ 368

# BİRİNCİ HİSSƏ

## G i r i ş

Sibirin uzaq məmləkətlərində, çöllərin, dağların, ya da keçilməz meşələrin qoynunda arabir kiçik, bir, uzağı iki min əhalisi, ağacdan tikilmiş, yöndəmsiz, biri şəhərdə, digəri qəbiristanda yerləşən iki kilsəsi olan şəhərlərə rast gəlmək olur; daha çox Moskvaətrafı yaxşı bir kəndə oxşayan bu şəhərlər qəza polis rəisləri, iclasçılar və digər kiçik rütbəli zabitlərlə kifayət qədər təmin olunmuşdur. Ümumiyyətlə, Sibirin havası son dərəcə soyuq, xidməti son dərəcə isti olur. Burda insanlar sadə, məhdud yaşayır: köhnə, möhkəm, əsrlərlə müqəddəs sayılan qayda-qanunlar hökm sürür; əhali əsasən Sibir dvoryanlığı rolunu haqlı olaraq oynayan məmurlar, yerli əhali – köklü sibirlilər və verilən məvaciblə müqayisədə böyük donluqla, ikiqat yol pulu və gələcək həvəsləndirici ümidlərlə şirnikdirilmiş, Rusiyadan, əksərən də paytaxtdan gəlmələrdir. Onlardan həyatın sirrindən baş aça bilənləri, demək olar ki, həmişə Sibirdə qalırlar və həvəslə orda kök salırlar. Sonralar onlar bol və şirin meyvə gətirirlər. Amma digərləri – yelbeyin və həyatın sirrindən baş aça bilməyənlər tezliklə Sibirdən bezir və kədər içində özlərinə belə bir sual verirlər: onlar nə üçün bura tökülüb gəliblər? Onlar məcburi xidmətlərinin, yəni üç ilin sonunu səbirsizliklə gözləyirlər və bu müddət qurtaran kimi dərhal başqa yerə dəyişdirilmək üçün əlləşir, Sibiri söyüşlərə qərq edə-edə, məsxərəyə qoya-qoya evlərinə qayıdırlar. Onlar haqsızdırlar: təkcə xidməti deyil, bir çox digər baxımdan Sibirdə kef çəkmək

olar. İqlimi gözəldir, çoxlu zəngin və qonaqpərvər tacirləri var, müxtəlif xalqların nümayəndələri son dərəcə firavan yaşayırlar, cavan qızlar qızılgül kimi çiçəklənirlər və son dərəcə mənəviyyatlıdırlar; küçələrdə ov quşları uçuşur və ovçuya özləri tuş gəlirlər; şampan şərabı ifrat dərəcədə çox içilir; kürüyə söz ola bilməz; məhsul bəzi yerlərdə birə-on beş olur… Ümumiyyətlə, torpaq bərəkətlidir. Yalnız ondan istifadə etməyi bacarmaq lazımdır. Sibirdə ondan istifadə etməyi bacarırlar.

Bu cür şad-xürrəm və özündən müştəbeh, mehriban əhalisi olan və ürəyimdə silinməz xatirələr buraxmış şəhərlərdən birində Aleksandr Petroviç Qoryançikova rast gəldim; Qoryançikov Rusiyada dvoryan və mülkədar kimi doğulmuşdu, öz arvadını öldürdüyünə görə ikinci dərəcəli katorqa sürgününə çevrilmişdi və ona qanunla kəsilmiş onillik həbs cəzasını çəkdikdən sonra mütiliklə və səs-küysüz K. şəhərciyində öz həyatını başa vururdu. O, əslində, şəhər nahiyələrindən birində qeydiyyata alınmışdı, amma şəhərdə yaşayırdı, orada uşaqlara dərs keçməklə özünə birtəhər çörəkpulu qazanırdı. Sibir şəhərlərində sürgün olunmuş müəllimlərə tez-tez rast gəlmək olurdu; burada onlara qarşı vasvasılıq etmirdilər. Onlar əksərən fransız dilindən dərs deyirdilər ki, bu da həyat səhnəsində çox vacib idi və bu müəllimlərsiz Sibirin uzaq əyalətlərində fransız dili barəsində heç bir təsəvvürə malik olmazdılar. Birinci dəfə Aleksandr Petroviçlə qocaman, əməkdar və qonaqpərvər məmur İvan İvanıç Qvozdikovun evində görüşdüm; onun gözəl ümidlər verən beş qızı vardı. Aleksandr Petroviç qızlara biri gümüş pulla otuz qəpikdən, həftədə dörd dəfə dərs verirdi.

Onun zahiri görünüşü məni çox maraqlandırdı. Bu, son dərəcə solğun çöhrəli və arıq bir adam idi, hələ o qədər də qocalmamışdı, otuz beş yaşı olardı, balaca və zəif idi. Həmişə təmiz və avropasayağı geyinərdi. Əgər onunla danışmağa başlasay-

dınız, onda o sizə son dərəcə zəndlə və diqqətlə baxardı, ciddi bir nəzakətlə sizin hər bir sözünüzə diqqət kəsilərdi; sanki sualınızla ona çətin bir məsələ vermişdiniz, ya da ondan hansısa sirri öyrənmək istəyirdiniz və nəhayət, aydın və qısa cavab verərdi. Amma hər bir sözünü o qədər götür-qoy edərdi ki, birdən nədənsə sizinçün naqolay olardı və nəhayət, siz özünüz söhbətin qurtarmasına sevinərdiniz.

Mən onun barəsində İvan İvanıçdan soruşub öyrənəndə ki, Qoryançikov qüsursuz və mənəviyyatla yaşayır – əks təqdirdə İvan İvanıç onu öz qızları üçün müəllim kimi dəvət etməzdi; amma dəhşətli dərəcədə adamayovuşmazdır, hamıdan gizlənir, son dərəcə savadlıdır, çox oxuyur, kifayət qədər az danışır və ümumiyyətlə, onunla söhbət eləmək xeyli çətindir. Bəziləri deyirdilər ki, o dəlidir – hərçənd, dəliliyi ciddi bir qüsur saymırdılar və şəhərin hörmətli nümayəndələrinin əksəriyyəti Aleksandr Petroviçi hər vəchlə əzizləməyə hazır idilər, çünki o hətta faydalı ola, ərizə yaza bilərdi və s. Hesab edirdilər ki, yəqin, onun Rusiyada çoxlu qohumları var və bəlkə də onlar vacib adamlardılar, amma bilirdilər ki, elə sürgünün lap əvvəlindən o, öz qohumları ilə bütün əlaqələri kəsmişdi – bir sözlə, öz xeyrini bilən adam deyildi. Bir də ki, bizdə hamı onun həyat tarixçəsini bilirdi; bilirdilər ki, o, öz arvadını evliliyin ilk ilindəcə qısqanclıqdan öldürüb və özü də xəbər verib (bu da onun cəzasını kifayət qədər yüngülləşdirib). Bu cür cinayətlərə isə həmişə bir bədbəxtçilik kimi baxırlar və onlara təəssüflənirlər. Bütün bunlara baxmayaraq, bu qəribə adam inadla hamıdan kənar gəzirdi və camaatın içinə yalnız dərs verəndə çıxırdı.

Əvvəlcə ona xüsusi fikir vermirdim, amma nədənsə, o, yavaş-yavaş marağımı çəkməyə başladı. Onda sirli bir şey vardı. Onunla söhbət eləmək qəti mümkün deyildi. Əlbəttə, mənim suallarıma həmişə cavab verirdi, sanki bunu özünün ən birinci vəzifəsi he-

sab edirdi; amma cavablarından sonra onu sorğu-suala tutmaqdan sıxılırdım; həm də bu cür söhbətlərdən sonra onun sifətində daim nəsə bir iztirab və yorğunluq görünürdü. Yadımdadır, bir dəfə, gözəl bir yay axşamı onunla İvan İvanıçın yanından gəlirdim. Birdən ağlıma gəldi ki, onu bir dəqiqəliyinə evimə papiros çəkməyə dəvət edim. Onun sifətində necə bir dəhşət ifadə olunduğunu təsvir edə bilmirəm; o, tamam özünü itirdi, əlaqəsiz halda mızıldanmağa başladı və birdən qəzəblə mənə baxıb əks istiqamətdə qaçdı. Mən buna hətta təəccübləndim də. O vaxtdan qarşılaşanda mənə sanki qorxu içində baxırdı. Amma əl çəkmədim; elə bil nəsə məni ona sarı dartırdı və bir ay keçmiş səbəbsiz-filansız Qoryançikovun yanına getdim. Sözsüz ki, səfeh və nəzakətsiz hərəkət idi. O, şəhərin lap kənarında, qoca meşşan qarının evində mənzil kirayələmişdi; bu qarının vərəm xəstəliyinə tutulmuş bir qızı, bu qızın da qanunsuz doğulmuş bir qızı vardı; on yaşı olardı, qəşəng və şən bir qızcığaz idi. Mən içəri girəndə Aleksandr Petroviç bu qıza oxumaq öyrədirdi. Məni görüb elə tutuldu ki, sanki onu hansısa bir cinayət üstündə yaxalamışdım. Özünü tamam itirdi, stuldan sıçrayıb durdu və təəccüblə gözlərini mənə dikdi. Nəhayət, əyləşdik; o, mənim hər bir baxışıma diqqətlə göz qoyurdu, sanki hər bir baxışımda xüsusi, sirli bir məna axtarırdı. Başa düşdüm ki, dəlicəsinə vasvası bir adamdır. Nifrətlə mənə baxır, az qala soruşmaq istəyirdi: «Tezmi buradan çıxıb gedəcəksən?»

Onunla şəhərimizdən, gündəlik yeniliklərdən danışmağa başladım; o susur və qəzəblə gülümsünürdü; aydın oldu ki, o nəinki, adi, hamıya məlum olan şəhər yeniliklərindən xəbərsizdir, hətta onlarla heç maraqlanmır da. Sonra bizim əyalət barəsində, onun tələbləri haqqında danışmağa başladım; o məni dinləyir və elə qəribə şəkildə gözlərimin içinə baxırdı ki, nəhayət, bu söhbətə görə vicdan əzabı çəkməyə başladım. Lakin onu yeni kitablarla və jurnallarla az qala acıqlandırmışdım; bağlama əlimdəydi,